

# Ədalətin Zəfəri

## İLHAM ƏLİYEV separatçı rejimi məhv etdi, cinayətkar rəhbərləri isə Bakı həbsxanasına gətirtdi



**Dünya erməniliyinin ikiəsrlik avantürasını, "Böyük Ermənistan" xülyasını 44 günə məhv edib, 23 saata tarixdən birdəfəlik silən İlham Əliyev həyata keçirdiyi qətiyyətli siyasəti ilə bir daha hər kəsə göstərdi ki, onun sözü imzası qədər keçərlidir.**

Əgər Prezident hansısa sözü deyirsə və ya hansısa vədi verirsə, onu mütləq tezliklə reallığa çevirir. Bunu artıq təkcə Azərbaycan xalqı deyil, bütün dünya bilir.

Son illərdə dünya siyasi arenasında baş verən hadisələr, xüsusən də Avrasiyada irimiqyaslı enerji layihələrinin reallaşması və Avropanın enerji təhlükəsizliyi məsələləri ilə bağlı hər zaman tam müstəqil və qətiyyətli siyasət yürüdən İlham Əliyev ilk növbədə Azərbaycana etibarlı tərəfdaş statusu qazandırıb. Bütün bu proseslərdə Azərbaycan Prezidentinin ortaya qoyduğu mövqe hər zaman təqdir edilib və nümunə kimi göstərilib.

Keçmiş Dağlıq Qarabağ münaqişəsinin həlli istiqamətində isə İlham Əliyev konkret olaraq qətiyyətli mövqe nümayiş etdirib. Hər zaman münaqişənin sülh yolu ilə həll olunmasına tərəfdar olduğunu bəyan edən İlham Əliyev İkinci Qarabağ müharibəsində qalib tərəf olmasına baxmayaraq, məğlub Ermənistana yenə də sülh təklif etməklə humanist siyasətini bir daha göstərib. Lakin havadarlarının boş-boş vədlərinə arxayın olan Ermənistan siyasi rəhbərliyi və Qarabağda özünü qondarma "respublika" kimi təqdim edən terrorçu qurumun separatçıları bu çağırışa məhəl qoymayaraq siyasi şantajlara, hərbi təxribatlara əl atmaqla Azərbaycana "güc" göstərməyə çalışdılar.

İlham Əliyev müharibədən ötən 3 il ərzində dəfələrlə keçmiş hərbi xuntanın tör-töküntülərinə mesaj yollayaraq bəyan etdi ki, istənilən təxribata ağır cavab veriləcək və terrorçuların başı çox pis şəkildə əziləcək.

Çox keçmədi və Prezident hər zamankı kimi sözünün sahibi kimi nəinki separatizmin başını əzdi, həm də 200 illik erməni oyunbazlığını məhv etdi. Sentyabrın 19-da keçirilən 23 saatlıq antiterror tədbirləri ilə Azərbaycanın suverenliyi tam təmin olundu. Belə demək mümkünsə, İlham Əliyev Azərbaycanın suverenliyinin və konstitusiya quruluşunun tam bərpasını 23 saat ərzində yekunlaşdırdı.

İlham Əliyevin digər bəyanatı isə o idi ki, əli Azərbaycan xalqının qanına batmış, xalqımıza qarşı terror aktları törətmiş hər bir separatçı cəzasını alacaq. Bu bəyanatın da reallaşması çox çəkmədi. Özünü buraxdığını elan edən qondarma qurumun "rəhbər"ləri indi bir-bir həbs edilərək Bakıya gətirilir.

Azərbaycan Dövlət Təhlükəsizlik Xidməti tərəfindən bu günə kimi, 8 terrorçu saxlanılıb. Onlardan bəziləri barədə həbs qəti imkan tədbiri seçilib. Bəzilərinin isə sorğusu davam etdirilir. Ən son oktyabrın 3-də Qarabağdakı separatçıların keçmiş "prezident"ləri Arkadi Qukasyan, Bako Saakyan, Araik Arutyunyan, "Daşnakasütyun" partiyasının "Qarabağ təmsilçisi" və separatçı rejimin keçmiş parlament sədri David İşxanyan törətdikləri cinayət əməllərinə görə barələrində aparılan cinayət işləri üzrə DTX tərəfindən Bakıya gətirilib və yəqin ki, proses davamlı olacaq. Terrorçular törətdikləri cinayətlərə görə layiqli cəzalarını alacaqlar.

***Rəşad BAXŞƏLİYEV, "Azərbaycan"***

Azərbaycan. - 2023.- 5 oktyabr.- S.5.